

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

17 NOYABR 2024-cü il BAZAR № 253 (8011) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ

*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*

# COP29: Azərbaycanın "Yaşıl gündəliyi"nin geniş təqdimatı



***Azərbaycan özünün "Yaşıl gündəliyi" ilə istilik effekti yaradan qaz emissiyasının beynəlxalq normalara uyğun səviyyədə saxlanılması istiqamətində qlobal səylərə mühüm töhfə verir. Lakin aydındır ki, "yaşıl gündəlik" dövlətlərin vədləri və götürdüyü iddialı öhdəlikləri ilə yanaşı, ciddi səy də tələb edir. COP29-a ev sahibliyi edən ölkə kimi "yaşıl enerji"yə keçid prosesində öndəgedən dövlətlərdən olmaq Azərbaycanın üzərinə düşən öhdəlikdir.***

## *Bu sahədə öndəgedən dövlətlərdən olmaq ölkəmizin üzərinə düşən öhdəlikdir*

"İndi isə mən Azərbaycanın "Yaşıl gündəliyi" haqqında bir neçə söz söyləmək istərdim. Bərpaolunan enerjidə texniki potensialımız quruda 135 giqavat və dənizdə isə 157 giqavat təşkil edir. Ötən il BƏƏ-nin "Masdar" şirkəti bir regionumuzda 230 meqavatlıq Günəş enerji stansiyasının açılışını etdi. Səudiyyə Ərəbistanının "Acwa Power" şirkəti isə hazırda 240 meqavatlıq külək enerjisi stansiyasını tikir. COP29 çərçivəsində Birləşmiş Krallığın bp şirkəti ilə 240 meqavatlıq Günəş enerjisi stansiyasının dörd il əvvəl erməni işğalından azad edilmiş Cəbrayıl rayonunda tikilməsi ilə bağlı saziş imzalanacaq. Bu layihə sayəsində dünyanın ən iri neft və qaz terminallarından biri olan Səngəçal terminalında dekarbonlaşma təmin ediləcəkdir". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev COP29-un Liderlər Sammitinin açılış mərasimindəki çıxışında söyləyib.

Azərbaycanın COP29-a ev sahibliyi etməsi fonunda dünyanın təmiz enerjiyə transformasiya nəbzinin ölkəmizdə döyündüyünü nəzərə alsaq, Prezident İlham Əliyevin Azərbaycanın "Yaşıl gündəliyi"ni ehtiva edən fikirləri perspektiv enerji xəritəsini müəyyənləşdirmək üçün mühüm əhəmiyyətə malikdir. Azərbaycan özünün qədim tarixi, adət-ənənələri, birgəyaşayış norma və qaydaları, milli-mənəvi dəyərləri, yerləşdiyi coğrafi və strateji mövqeyi ilə sivilizasiyaların qovuşduğu məkan kimi daim diqqət mərkəzində olub. Respublikamızda son illər siyasi, sosial-iqtisadi, mədəni sahələrdə həyata keçirilən dərin islahatlar davamlı inkişafı təmin edib. Ölkəmizin bir sıra mötəbər forumlara, beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi etməsi dövlət başçısının uğurlu daxili və xarici siyasət kursunun göstəricisidir. Növbəti təşəbbüslərdən biri də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un ölkəmizdə keçirilməsi ilə bağlıdır.

"Yaşıl enerji" növlərinin yaradılması və onun dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin əsas tərkib hissəsinə çevrilib. Prezident İlham Əliyevin Sərəncamı ilə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ölkəmizin beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizədə qətiyyətinin göstəricisidir. Azərbaycan artıq dünyada prioritet elan olunmuş "yaşıl keçid" platformasının da fəal iştirakçılarından birinə çevrilib. "Yaşıl enerji"yə keçid, bərpaolunan enerji sahəsinin inkişafı üçün ölkəmizdə yaxşı sərmayə mühiti var və ənənəvi enerjidən əldə etdiyi gəlirlər bərpaolunan enerjiyə yönəldilir. Bu sahə, eyni zamanda, xarici sərmayədarların da diqqət mərkəzindədir.

Sammitdə dövlət başçısı bildirib ki, 2030-cu ilə qədər təxminən altı giqavatlıq Günəş, külək və hidroenerji stansiyalarının tikilməsi planlaşdırılır. Lakin bu tam planlarımızın hamısı deyil, 10 giqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb. Həmçinin ixrac bazarlarına diqqət yetiririk və Xəzər dənizindən başlayaraq, Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji təhlükəsizliyi layihəsinin həyata keçirilməsi üçün tərəfdaşlarımızla fəal çalışırıq. Bu, Avropaya "yaşıl enerji"ni ixrac etmək imkanı verəcək. Azərbaycan Prezidenti ölkəmizin işğaldan azad edilmiş torpaqlarını "Yaşıl Enerji Zonası" elan edib. Məqsəd 2050-ci ilə qədər bu əraziləri "xalis sıfır emissiya" zonalarına çevirməkdir. Azərbaycanın bütün bölgələrində, o cümlədən işğaldan azad edilmiş Kəlbəcər və Ağdərə rayonlarında geotermal və Günəş enerjisi ehtiyatları, Laçın, Qubadlı və Zəngilan rayonlarında su enerjisi mənbələri, Şuşa, Xocavənd və Cəbrayıl rayonlarında külək enerjisi, həmçinin Tərtərdə bioenerji ehtiyatları mövcuddur. Onların səmərəli istifadəsi nəticəsində ölkəmiz "yaşıl enerji"nin istehsalçısı və istehlakçısına çevriləcək.

**(davamı 6-cı səhifədə)**

(əvvəli 1-ci səhifədə)

COP29 Azərbaycanın "yaşıl enerji" keçidinə sadiqliyini əks etdirən əlamətdar uğurlarla müşayiət olunur. Şərqi Zəngəzurda bp şirkəti ilə ilk sənaye miqyaslı günəş enerjisi üzrə xarici investisiya layihəsi olan 240 MVt gücündə stansiyanın təməli qoyuldu. "Xəzər-Avropa yaşıl enerji dəhlizi" üzrə nazirlərin 9-cu iclası keçirildi. Eyni zamanda Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Hökumətlərarası Saziş imzalandı, Səudiyyə Ərəbistanının bu üçtərəfli layihəyə mühüm tərəfdaş kimi qoşulmasını təmin edən sənədlər qəbul olundu. Bundan əlavə, Çinin 6 şirkəti ilə 6 müqavilə imzalandı, o cümlədən Azərbaycan öz hidrogen strategiyasını elan etdi. Beynəlxalq Atom Enerjisi Agentliyi ilə Paris Sazişi kontekstində enerji planlaşdırılması sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalandı. Bütün bunlar Azərbaycanın enerji sahəsindəki əzmkarlığını və "yaşıl gələcək" naminə qlobal həmrəyliyə sadiqliyini nümayiş etdirir. COP29 təşəbbüsləri yalnız ölkəmizin deyil, bütün dünyanın dayanıqlı enerji gələcəyinə töhfə verməyə yönəlmiş əhəmiyyətli addımlardır.

***Bu sahədə öndəgedən dövlətlərdən olmaq ölkəmizin üzərinə düşən öhdəlikdir***




Onu da qeyd edək ki, cari ilin 21 iyununda Prezident İlham Əliyevin "Euronews" televiziyasına verdiyi müsahibə planetimizin qorunması üçün qlobal həmrəyliyə çağırış idi. Dövlət başçısı, həmçinin qeyd etdi ki, Azərbaycan "yaşıl enerji"yə keçid prosesində lider ölkələrdən biri sayılır, ənənəvi enerjidən əldə etdiyimiz gəlirlərin bərpaolunan enerjiyə yönəldilməsi hazırda ölkəmiz üçün əsas prioritetlərdən biridir. Prezident İlham Əliyev müsahibəsində bunun üzərimizə düşən önəmli öhdəlik olduğunu diqqətə çatdırdı: "COP29-a ev sahibliyi edəcək ölkə kimi "yaşıl enerji"yə keçid prosesində öndə gedənlərdən olmaq bizim üzərimizə düşən öhdəlikdir. Ev sahibliyi edən ölkə kimi bizim əsas məqsədlərimizdən biri birliyi və həmrəyliyi yaratmaqdır. Biz COP zamanı və ondan sonra sədrliyimizin davam edəcəyi dövrdə elə müsbət mühit qurmaq istəyirik ki, ölkələr və şirkətlər bir-biri ilə istəklə işləsin və qarşılıqlı iddiaları kənara qoysunlar, planetin qorunması ilə əlaqədar əsas gündəliyə diqqət yetirsinlər".

Azərbaycan bərpaolunan enerji sahəsində qabaqcıl ölkələr sırasına yüksəlmək əzmindədir və bu məqsədlə zəngin külək və günəş potensialından istifadə edir. Bu həmçinin ölkənin 2050-ci ilə qədər istixana qazı emissiyalarını 40 faiz azaltmaq planının mühüm tərkib hissəsidir. Ölkə 2030-cu ilə qədər elektrik enerjisində bərpaolunan enerjinin qoyuluş gücü üzrə payını 30 faizə çatdırmaq və "yaşıl enerji" sahəsində lider olmaq üçün mövcud enerji sistemini şaxələndirir. Azərbaycan bu sahədə nümunəvi ölkə olaraq 1.5°C hədəfinə uyğun olaraq növbəti Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr sənədi çərçivəsində öz milli hədəflərini yeniləyir.

Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a ev sahibliyi etməsi Prezident İlham Əliyevin növbəti qələbəsidir. Bu, Qoşulmama Hərəkatına sədrliyimiz və BMT Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur.

**Mustafa KAMAL,**
**"Respublika".**